**Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Sədri**

**hörmətli Anar Bağırova.**

Sevil İsmayıl qızı Allahverdiyeva tərəfindən

*Bakı şəhəri, Yasamal rayonu, Zərdabi 78V, mənzil 65 (055 274 96 58)*

Vəkillər Kollegiyasının üzvü, vəkil Bəxtiyar Hacıyevin VƏKİL adını yüksəklərə qaldıraraq mədəni, humanist, vicdanlı davranış nümayiş etdirdiyinə, Vəkillərin Etik Davranış Qaydalarına yüksək səviyyədə əməl etdiyinə görə həm cənab Bəxtiyar bəyə, həm də cənab Anar Bağırova

# T Ə Ş Ə K K Ü R   M Ə K T U B U

Mənim 16 ildir məhkəmə mübahisələrim davam edir, bu 16 il davam edən məhkəmə mübahisələrimdə çox vəkillərlə ünsiyyətdə oldum, ancaq Bəxtiyar Hacıyevin müstəsna vəkillik qabiliyyəti ilə, humanist hüququ yardımları ilə mən uğurlu məhkəmə aktlarının qəbul olunmasına nail oldum. Həmin məhkəmə aktlarının icra prosesində də vəkillik adını yüksəklərə qaldıracaq səviyyədə mənə hüququ yardımlar da etdi.

Məhkəmə aktları ilə mən dəfələrlə dövlət hesabına vəkillə təmin olunmuşam, təyinatla mənə yönləndirilən vəkillərdən mənə hüququ xidmət etməkdən əsassız olaraq imtina edənlər də oldu, işini icra edənlərdə. Ancaq hörmətli Bəxtiyar Hacıyev vəkillik adını yüksəklərə qaldıran davranışlar nümayiş etdirirək, həlim, mehriban, səmimi, alicənab xarakteri ilə heç bir zaman hüququ xidmətini, yardımını məndən əsirgəmədi, məni yarı yolda qoymadı.

Nə zaman hüququ baxımdan çətinə düşdümsə, nə zaman hüququ yardıma ehtiyacım oldusa, nə zaman məhkəmələrdə köməksiz vəziyyətdə qaldımsa, bu çətin proseslərdə nə zaman vəkil Bəxtiyar bəyə müraciət etdimsə, həmişə mənə təcili hüququ köməyini göstərdi. Bu cür vəkillər Vəkillik Adını Yüksəklərə qaldırarırlar, ictimaiyyət arasında vəkilliyə hörmət qazandırandırlar. Bu cür vəkillər cəmiyyət arasında vəkilliyə və vəkillərə inam hissini daha da artırırlar.

**Bəxtiyar Hacıyev mərhəmətli, alicənab, həssas, insanlıqdan anlayışı olan, mərifətli, mədəni, nəzakətli vəkildir,bu da onun mədəni ailədə tərbiyə almasını göstərir.**

Mənim Bəxtiyar bəyə bir vəfa borcum var - belə qərara gəldim ki, Cənab Anar bəy, sizə təşəkkür müraciəti yazım. Sizə təklif edirəm ki, mənim təşəkkür müraciətim Vəkil Bəxtiyar bəyin şəxsi işinə əlavə olunsun, vəkillik adını yüksəklərə qaldıran nümunəvi hərəkətləri Vəkillər Kollegiyasının Rəyasət Heyətində, kollektivdə, bütün vəkil bürolarında müzakirə olunsun, onun vəkillik fəaliyyəti digər vəkillərə nümunə göstərilsin.

Vəkillik peşəsi insanda nününəvi şəxs olmağı tərbiyə edir, mərhəmətli, üzv olduğu Kollegiyanın adını yüksəklərə qaldırmağı tərbiyə edir. Belə keyfiyyətlər vəkil Bəxtiyar Hacıyevdə cəmləşibdir. Mənim adımdan cənab vəkil Bəxtiyar Hacıyevə təşəkkürlərimi çatdırmağınızı, vəkilin vəkillik fəaliyyəti qiymətləndirilərkən müraciətimin nəzərə alınmasını xahiş edirəm.

Hörmətlə, Allahverdiyeva Sevil İsmayıl qızı
28.07.2021-ci il.

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2147
«16» 08 2021 il